# YAP-ın qərarı xalqın və dövlətin strateji maraqlarına cavab verir



"Yeni Azərbaycan Partiyası tərəfindən Prezident İlham Əliyevin 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar seçkilərdə namizədliyinin irəli sürülməsi millətimizin və dövlətimizin bu gününə və gələcəyinə hesablanmış ən düzgün addım və qəbul edilmiş ən doğru qərardır.

Ona görə ki, Prezident 1988-ci ildən bəri xalqın qarşısında dayanan ən vacib məsələni həll edən, arzularımızı gerçəkləşdirən görkəmli dövlət xadimidir. İlham Əliyev Vətən müharibəsində işğalda olan torpaqlarımızı azadlığa qovuşduran, 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərində separatizmin kökünü kəsərək bütün ölkə ərazisində suverenliyimizi bərqərar edən dövlət rəhbərimizdir".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı deyib. Deputat xatırladıb ki, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edilsə də, heç bir zaman bütün ölkə ərazisini əhatə edən dövlət suverenliyimiz mövcud olmayıb, işğal altında olan torpaqlarımızda qanunlarımız icra edilməyib. Azərbaycan tarixində bunu ilk dəfə gerçəkləşdirən Prezident İlham Əliyev olub. Dövlət başçısı torpaqlarımızı işğaldan azad etməklə Azərbaycan xalqının başını uca etdi və növbəti onilliklər üçün perspektivləri müəyyənləşdirdi.

Musa Qasımlı bildirib ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın siması dəyişib. Müharibənin başa çatmasından cəmi 3 il keçməsinə baxmayaraq, işğaldan azad edilmiş ərazilərimizə artıq yeni nəfəs gəlib, torpaqlarımız dirçəlib. Təsadüfi deyil ki, indiyə qədər 4209 nəfər məcburi köçkün doğma yurdlarına qovuşub.

Deputat onu da qeyd edib ki, Prezidentin Azərbaycanın gələcəyi ilə bağlı aydın strateji hədəfləri var: "Bu, İlham Əliyevin 2003-cü ildən bəri yürütdüyü siyasətində bariz şəkildə özünü göstərir. Ölkənin sosial-iqtisadi, siyasi və mədəni inkişafı, eləcə də digər sahələrdə həyata keçirilən işlər hər şeyin dəqiq və planlı olduğunu sübut edir. Ona görə də İlham Əliyevin növbədənkənar prezident seçkilərində namizəd olması xalqımızın, Azərbaycanı sevənlərin, dövlətimizin və millətimizin güclü olmasını istəyənlərin ürəyincədir".

Musa Qasımlı sonda deyib ki, Yeni Azərbaycan Partiyasının bu qərarı ölkəmizi daha işıqlı gələcəyə aparacaq: "Nəzərə almaq lazımdır ki, YAP-ın İlham Əliyevin namizədliyini təsdiqləməsi millətimizin və dövlətimizin strateji maraqlarına cavab verir. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin sadiq qaldığı, uğurla yürütdüyü siyasətin alternativi yoxdur".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 21 dekabr, № 279.- S.7.